## Kənd yerlərindəki *tibb* müəssisələrinə tibbi kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Respublikanın kənd yerlərindəki *tibb* müəssisələrinə tibbi kadrların cəlb olunmasını həvəsləndirmək, tibbi kadr çatışmazlığını aradan qaldırmaq məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Respublikanın kənd rayonlarında yerləşən *tibb* müəssisələrinin tibbi kadr tələbatını ödəmək məqsədi ilə dövlət ali və orta ixtisas məktəblərini tibbi ixtisaslar üzrə bitirərək, dövlət sifarişinə uyğun iş yerlərində əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti davam etdirən gənc mütəxəssislərə 3 il müddətində kommunal xidmətlərini ödəmək üçün ayda 33 manat məbləğində kompensasiya verilsin və yerli icra hakimiyyəti orqanları tərəfindən müvafiq qurumlarla birlikdə onlara lazımi mənzil-məişət şəraitinin yaradılmasına, daimi məskunlaşmaq üçün torpaq sahələrinin ayrılmasına və kreditlərin verilməsinə köməklik göstərilsin.

Rayon mərkəzlərindən 20 km-dən artıq məsafədə yerləşən tibb müəssisələrində əmək fəaliyyətinə başlayan hər bir nəfər üçün 3 il müddətində aylıq əməkhaqqına 66 manat məbləğində əlavələr ödənilsin.

2. Tibbi profilli dövlət ali və orta ixtisas təhsili müəssisələrini bitirərək, ciddi kadr tələbatı olan bölgələrdə əmək fəaliyyətinə başlamaq üçün konkret iş yerlərinə göndəriş almış gənc mütəxəssislərə yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədi ilə əməkhaqqının iki misli həcmində birdəfəlik yardım ödənilsin.

3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

3.1. 2010-2014-cü illər üçün səhiyyə müəssisələrində tibbi kadr təminatı üzrə İnkişaf Proqramının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.2. gənc mütəxəssislər üçün lazımi əmək şəraitinin yaradılması məqsədi ilə səhiyyənin yerli qurumlarının fəaliyyətini gücləndirsin, bu kateqoriyadan olan işçilərə yerlərdə diqqət və qayğını artırsın, müvafiq stimullaşdırıcı tədbirlər həyata keçirsin.

4. Bu qərar 2010-cu il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 5 avqust 2009-cu il
119

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 oktyabr 2021-ci il tarixli **327** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 noyabr 2021-ci il, 237, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1194**)

### QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 30 oktyabr 2021-ci il tarixli **327** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 noyabr 2021-ci il, 237, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1194**) ilə adında, preambulasında və 1-ci hissəsinin birinci abzasında "**səhiyyə**" sözü "**tibb**" sözü ilə əvəz edilmişdir.